# Qəbələdə üzümçülüyün və şərabçılığın inkişafı məsələləri müzakirə olunub

***Bu gün qeyri-neft sektorunun digər sahələri kimi, şərab ixracının artırılması başlıca vəzifə olaraq qarşıya qoyulub. İxracın təşviqi fonunda xarici bazarda tanıdılması nəzərdə tutulan məhsullar arasında şərab da var. Hazırda ölkəmizdə istehsal olunan şərab məhsullarının keyfiyyəti beynəlxalq standartlara uyğundur.***





Bu fikirlər Kənd Təsərrüfatı Nazirliyinin Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunun təşkilatçılığı ilə Qəbələ rayonundakı "ASPİ Agro" MMC-nin "Savalan" üzüm emalı və şərab istehsalı müəssisəsində keçirilən "Azərbaycanda müxtəlif növ texniki üzüm sortlarından alınan yüksək keyfiyyətli şərab və konyak istehsalı texnologiyalarının təkmilləşdirilməsi" mövzusunda respublika elmi-praktik seminarında səsləndirilib.

Üzümçülüklə məşğul olan fermerlərin və torpaq mülkiyyətçilərinin, qabaqcıl üzüm emalı müəssisələrinin nümayəndələrinin, alimlərin iştirak etdiyi tədbirdə çıxış edən Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunun direktoru, Beynəlxalq Üzümçülük və Şərabçılıq Akademiyasının həqiqi üzvü, Avropa Təbiət Elmləri Akademiyasının akademiki, texnika üzrə elmlər doktoru Tariyel Pənahov bildirib ki, dövlətimiz tərəfindən üzümçülük və şərabçılığın inkişafı ilə bağlı ardıcıl proqramlar qəbul edilib. Onlardan sonuncusu 2018-2025-ci illəri əhatə edən Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramıdır. Qeyd olunub ki, son illər süfrə, desert, nektar və kaqor tipli şərabların, meyvə və giləmeyvə likorlarının, bəhməz və təbii üzüm şirəsinin yeni texnologiyalarının işlənib hazırlandığını, şampan şərab materiallarının, konyak və arağın hazırlanma texnologiyalarının təkmilləşdirildiyini diqqətə çatdırıb. Bildirilib ki, "Made in Azerbaijan" brendinin təbliğ edilməsi məqsədilə hazırda Azərbaycan istehsalı olan şərabların və spirtli içkilərin müxtəlif ölkələrdə təşkil olunan beynəlxalq dequstasiya müsabiqələrində və sərgilərdə təqdimatı keçirilir.

Dünyada istehsal olunan üzümün təxminən 80 faizinin adətən emala getdiyini, 20 faizinin isə süfrə üzümü və digər məqsədlər üçün istifadə olunur. Bildirilib ki, ölkəmizdə artıq bu işə başlanılıb və müəyyən nailiyyətlər əldə olunub".

Tədbirdə çıxış edən "ASPİ Agro" MMC-nin sədri Əjdər Şəfizadə "Savalan" üzüm emalı və şərab istehsalı müəssisəsində müasir texnologiyaların tətbiqi əsasında şərabçılıq məhsullarının istehsalı barədə məlumat verib. Vurğulanıb ki, 2007-ci ildə fəaliyyət göstərən müəssisədə 2010-cu ildən şərab istehsalına başlanılıb. İllik istehsal gücü 1000 ton olan müəssisədə hazırda 16 çeşiddə şərab istehsal olunur. Müəssisədə istehsal olunan şərab məhsulları Rusiya, Belarus, Türkiyə, bir sıra Avropa ölkələrinə, həmçinin Çin Xalq Respublikasına ixrac edilir. Hazırda müəssisənin Qəbələ və İsmayıllı rayonlarının ərazisində 350 hektar üzüm sahəsi var.

Açıq dialoq şəklində davam edən seminarda daha sonra üzümçü fermer və sahibkarları maraqlandıran suallar ətrafında müzakirələr aparılıb. Tədbir iştirakçıları Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunun əməkdaşları tərəfindən aparılan elmi-tədqiqatlar nəticəsində seçilmiş Azərbaycan şəraitinə uyğun fillokseraya davamlı Amerika calaqaltı və yeni hibrid üzüm sortları ilə tanış olub, müəssisənin istehsal sahələrinə baxış keçirib, texnoloji avadanlıqla tanış olub, üzümün emalı və şərabın hazırlanması prosesini yaxından izləyiblər.

# Yolun yenidən qurulması yekunlaşır



Nic-Mıxılqovaq-Yemişanlı-Uludaş-Tikanlı-Abrıx yaşayış məntəqələrini əhatə edən və uzunluğu 18 kilometr olan avtomobil yolunun yenidən qurulması işləri yekunlaşmaq üzrədir.

Layihəyə əsasən, sözügedən yol V texniki dərəcədən IV texniki dərəcəyə uyğun yenidən qurulur.

Yenidənqurma işləri çərçivəsində süni qurğuların inşası və əsaslı şəkildə bərpası aparılıb.

Qısa müddətə zəruri olan yerlərdə 98 ədəd yol nişanı və məlumatverici lövhə, 36 kilometr göstəricisi və 720 ədəd siqnal dirəyi quraşdırılacaq, 69 kilometr uzunluğunda yol-cizgı və yolgöstərici xətlər, həmçinin piyada zolaqları çəkiləcək. Müasir tələblərə cavab verən yol yaxın vaxtlarda əhalinin istifadəsinə veriləcək.

**"Qəbələ"**

## *Ölkəmizin aqrar sektorunda*

### Kənd təsərrüfatının istehsalı 4,2 faiz artıb

2018-ci ilin yanvar-avqust ayları üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 4774,4 milyon manat təşkil edib.

AZƏRTAC xəbər verir ki, bu vəsaitin 2387,6 milyon manatı heyvandarlıq, 2386,8 milyon manatı isə bitkiçilik məhsullarının payına düşür.

Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatının istehsalı 4,2 faiz, o cümlədən heyvandarlıq məhsulları üzrə 2,6 faiz, bitkiçilik məhsulları üzrə isə 5,8 faiz artıb.

## Əkin sahələrindən 3036,3 min ton məhsul götürülüb

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, sentyabr ayının 1-nə kimi dənli və dənli paxlalı bitkilərin (qarğıdalısız) 1051,4 min hektar əkin sahələrindən 1041,1 min hektarı biçilib və həmin sahələrdən 3036,3 min ton və ya orta hesabla hər hektardan 29,2 sentner məhsul əldə edilib.

Bundan əlavə, məhsulu toplanmış 12,8 min hektar dənlik qarğıdalı sahəsindən 81,4 min ton məhsul götürülüb.

Məhsul yığımı başlanan vaxtdan sentyabr ayının 1-dək sahələrdən 1153,3 min ton və ya keçən ilin müvafiq dövrünə nisbətən 9,0 faiz çox tərəvəz, 642,8 min ton (9,1 faiz az) kartof, 372,2 min ton (7,1 faiz az) bostan məhsulları, 362,2 min ton (0,8 faiz çox) meyvə və giləmeyvə, 37,8 min ton (0,3 faiz çox) üzüm, 695,1 ton (37,2 faiz çox) yaşıl çay yarpağı, 90,3 min ton (46,1 faiz çox) şəkər çuğunduru, 21,1 min ton (24,2 faiz az) günəbaxan, 157,0 ton (66,3 faiz az) pambıq və 3,0 min ton (1,3 faiz çox) tütün yığılıb.

Hazırda kənd təsərrüfatı bitkilərinin yığımı davam edir.

## Ət istehsalı 3,3 faiz artıb

Ötən ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-avqust aylarında diri çəkidə ət istehsalı 3,3 faiz artaraq 322,9 min tona çatıb.

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, bu dövr ərzində süd istehsalı 1,2 faiz artaraq 1365,3 min ton, yumurta istehsalı 0,7 faiz artaraq 1162,4 milyon ədəd, yun istehsalı isə 1,3 faiz azalaraq 15,2 min ton olub.

Bundan başqa, ölkədə 514 ton barama istehsal edilib ki, bu da son 20 ilin ən yüksək göstəricisidir.

## Beynəlxalq Həkimlər Günü

***Dünyanın bir çox ölkələrində hər il oktyabr ayının birinci bazar ertəsi Beynəlxalq Həkimlər Günü kimi qeyd olunur. Bu gün bütün dünya həkimlərinin həmrəylik və birliyini nümayiş etdirir.***

***Bu bayramın yaradılmasının təşəbbüskarları Dünya Səhiyyə Təşkilatı və "Sərhədsiz həkimlər" beynəlxalq tibbi humanitar təşkilatıdır.***



### HƏKİM

*Əllərin şəfalı, niyyətin ülvi,*
*Şəfalı əllərin var olsun, həkim.*
*Neçə ümidsizə həyat bəxş etdin,*
*Ülvi niyyətlərin var olsun, həkim.*
*Qayğılı çöhrəndən nur yağır sənin,*
*İşin rahat deyil, çox ağır sənin.*
*Hörmətin işinlə çoxalır sənin,*
*Tanrı işinizdə yar olsun, həkim.*
*Əyri yola düşməz təbib olan kəs,*
*Başqa cür düşünmək əbəsdir, əbəs.*
*Bu zaman dillənir ucadan bir səs,*
*Daim düz yolunda olursan, həkim.*
*Vacibdir bizlərə xoş təbiətin,*
*Keşiyin çəkirsən xalqın, millətin.*
*Həkimlik ən böyük varın, sərvətin,*
*Bunu varlığınla duyursan, həkim.*
*Təsəllin nə gözəl səslənir sənin,*
*İçində gözəllik bəslənir sənin.*
*O vaxt ki, əlacın kəsilir sənin,*
*Tanrıya üz tutub qalırsan, həkim.*
*Suallar verirsən özünə hərdən,*
*İnsanın həyatı qısadır nədən,*
*Bunları arayıb tapmaq ücün sən,*
*Dərin xəyallara dalırsan, həkim.*
*Yanar şama bənzər insanın ömrü,*
*Yanıb yaşamırsa yox bir dəyəri.*
*Məqsədin yox etmək xəstəlikləri,*
*Yaşatmaq naminə yanırsan, həkim.*

***Əmirxan BURZUYEV.***

## *Həkim məsləhəti*

### Hepatitdən necə qorunmalı?

Hepatit nədir?- Hepatit ümumi anlayış olub, qaraciyər hüceyrələrinin iltihabı deməkdir. Hepatit viruslarından 5-i daha fəaldır. Hepatit A və E gigiyenik cəhətdən təmiz olmayan şəraitdə, hepatit B, C və D isə qan vasitəsi ilə yoluxur. Əsas yoluxma yolu hepatit virusu daşıyan qan və qan məhsullarından istifadə və bu virusu daşıyan şəxslə cinsi əlaqədir.

Sterilirasiya qaydalarına əməl olunmayan diş həkimi kabinetləri, gözəllik salonları, döymə (tatu) və piercing mərkəzlərində yoluxma riski yüksəkdir.

Nəzərə alsaq ki, hepatitlər təsadüfi muayinələr zamanı aşkarlanır, bunün üçün vaxtaşırı tibbi müayinələrdən keçmək məsləhətdir. Virus aşkarlanan hər bir şəxs vaxt itirmədən həkimə müraciət etməlidir. Əks halda zamanla qaraciyərdə ciddi dəyişikliklər yaranaraq qaraciyər serrozu və qaraciyər xərçənginə çevrilə bilər. Hepatit virusuna hər kəs yoluxa bilər, amma bu o demək deyil ki, hepatitdən qorunmaq mümkün deyil. Bunun üçün bir sıra gigiyenik qaydalara əməl etmək, diş fırçası, üzqırxan və manikür alətlərindən fərdi qaydada istifadə etmək lazımdır.

Ölkəmizdə aparılan vaksinasiya, xəstəliyin düzgün diaqnostikası, müayinə və müalicəsi, eləcə də görülən antiepidemioloji tədbirlər hepatitə yoluxmanın xeyli azalmasına səbəb olmuşdur.

**Elnur İSGƏNDƏROV,**
**Müalicə-Diaqnostika Mərkəzinin həkimi.**